# "Heydər Əliyev irsində hərb tarixi" adlı elmi seminar keçirilib



**Azərbaycan Hərb Tarixi Muzeyində ulu öndər Heydər Əliyevin vəfatının 22- ci ildönümünə həsr olunmuş "Heydər Əliyev irsində hərb tarixi" adlı elmi seminar keçirilib.**

**Elmi seminarda Azərbaycan Hərb Tarixi Muzeyinin şəxsi heyəti, Hərbi Polis İdarəsindən nümayəndələr, Milli Müdafiə Universitetindən mayor Ceyhun Əliyev, baş leytenant Ramilə Həmidova, leytenant Əbülfəz Məmmədov və Bakı Hərbi Kollecindən 20 nəfər şəxsi heyət iştirak etmişlər.**

Seminarda Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi e.o.polkovnik Elşad Pənahov çıxış edərək qeyd edib ki, ölkəmizin tərəqqisi naminə gördüyü böyük işlərə görə hər bir vətənsevər azərbaycanlının qəlbində möhtəşəm abidə ucaltmış ümummilli lider Heydər Əliyevin dünyasını dəyişdiyi vaxtdan artıq 22 il ötür. Müasir Azərbaycan tarixinin 30 ildən artıq müddəti dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin adı ilə sıx bağlıdır:

"Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş Ümummilli Liderimiz həm keçmiş Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görüb. Həyatımızın elə bir sahəsi olmaz ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin. Ölkəmizin iqtisadi, siyasi, elmi, mədəni, hərbi sahələrində Heydər Əliyev fəaliyyətinin dərin və zəngin izləri qalmaqdadır. Bu səbəbdən Ümummilli Lider müasir Azərbaycan dövlətinin memarı və banisi hesab edilir".

Elşad Pənahov bildirib ki, güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, həm də onun malik olduğu ordunun qüdrəti ilə də ölçülür:

"Ölkəmizdə ordu quruculuğu prosesi də məhz böyük öndərin adı ilə bağlıdır. Hələ Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün çox iş görmüşdü. İndi Azərbaycan Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi haqlı olaraq Heydər Əliyev məktəbi adlandırırlar. Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev azərbaycanlı gənclərin hərbi xidmətə marağının artırılması və onların ordu sıralarında ölkəmizi layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə bu məktəbin paytaxtımızda yaradılmasına nail oldu. Bu gün Silahlı Qüvvələrimizdə xidmət edən yüzlərlə zabit, neçə-neçə general hərbçi sənətinin əlifbasına bu məktəbdə yiyələnib".

Polkovnik çıxışında Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın ərazi iddiaları və silahlı təcavüzü ilə üz-üzə qaldığına diqqət çəkib. Bildirib ki, xarici qüvvələrin və erməni diasporunun gücünə arxalanan İrəvan bir-birinin ardınca yeni dönəmdə tarixi sınaqlara hazır olmayan Bakını çətin sınaqlar qarşısında qoydu:

"Azərbaycanın tarixi torpaqlarına Ermənistanın açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələndi. İlk illərdə böyük çətinliklərlə qarşılaşan xalqımız güclü ordu, vahid komandanlıq, nizam-intizam olmadığına görə torpaqlarımızın bir qismini 90-cı illərdə düşmən havadarlarının güclü hərbi-siyasi dəstəyilə işğal etməyi bacarmışdı.

Xalqın tələbilə Bakıya qayıdaraq Azərbaycana rəhbərliyə başladıqdan sonra, dövlət çevrilişi cəhdlərinə, müxtəlif manelərə baxmayaraq, Ulu Öndər bütün maneələri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxardı. Böyük iradə və gərgin zəhmət bahasına Prezident Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağa nail oldu və respublikamızın inkişafı üçün zəmin yaratdı".

Daha sonra Hərbi İdarəetmə İnstitutu İdarəetmə akademik kursunun dinləyicisi mayor Ceyhun Əliyev çıxış edərək bildirib ki, Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. Və güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür:

"Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Bu gün artıq dünya müasir hərb sənətinə öz şərəfli imzasını atmış Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi bütün ömrünü xalqının xoşbəxt gələcəyi, azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə sıx bağlıdır.

O vaxtlar SSRİ hökümətinin, Kommunist Partiyasının elan olunmamış qərarına görə, ali hərbi məktəblər, əsasən Rusiya, Ukrayna və Belarusiyada fəaliyyət göstərirdi və Heydər Əliyev öz çıxışlarının birində bildirmişdir ki, "Bunları görəndə düşünürdüm yaxşı, biz Sovetlər İttifaqının bərabər hüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq? .. və nəticədə bu məktəbi yarada bildik" . Məqsəd SSRİ dövründə azərbaycanlı gənclərin hərbi sahədə peşəkar kadr kimi hazırlanması idi. Məhz onun sovet dövründə Cəmşid Naxçıvanski adına hərbi liseyin təməlini qoyması müstəqillik dövründə kadr bazasının əsası oldu.

Ceyhun Əliyev qeyd edib ki, 90-cı illərin əvvəllərində ölkənin üzərində qara buludlar var idi, nizami ordu yox idi, ərazilərimiz pərakəndə silahlı birləşmələrlə müdafiə olunurdu və torpaqların işğalı davam edirdi. Amma Heydər Əliyevin geri dönüşü hər kəsə ümid işığı verdi. Azərbaycanı dərin böhrandan xilas etməsi və hərbi gücünü yüksəltməsi bir-biri ilə sıx bağlı olan strateji addımların nəticəsi idi.

Elmi seminarda, həmçinin Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-baş elmi işçisi, t.ü.f.d. Vahid İsmayılov məruzə ilə çıxış edib. Qeyd edib ki, Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır:

"Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb edib və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar edibdir.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Hər şey həmin tarixdən - iyunun 15-dən başladı. Bu tarix bir neçə anlamda Azərbaycanın qurtuluşunun başlanğıcı oldu. Birincisi, dövlətçilik ideyası iflasdan qurtuldu. İyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

Heydər Əliyev əvvəlcə Azərbaycanı böyük bir fəlakətdən xilas etdi, sonra isə dövrün tələblərinə yüksək dərəcədə cavab verən müstəqil demokratik dövlət quruculuğu konsepsiyasını işləyib hazırladı, Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun illər çalışdı, müstəqil Azərbaycanın memarı və qurucusu kimi tarixdə yerini tutdu".

Vahid İsmayılov mütəxəssislərin Ümummilli Liderin xarici siyasət strategiyasının uğurunu üç faktorla izah etdiklərinə diqqət çəkib:

"Birincisi, Heydər Əliyev dövrün çağırışlarına cavab verən xarici siyasi strategiyanı müəyyən etdi. Məsələ ondan ibarətdir ki, keçən əsrin 90-cı illəri ümumən qlobal siyasətdə müxtəlif ziddiyyətli meqamlarla xarakterizə olunurdu. Sosialist düşərgəsinin dağılması ilə geosiyasi mənzərənin sadələşəcəyinə və liberalizmin tam qələbə çalacağına ümid edənlərin gözləntiləri özünü doğrultmadı. Meydana daha mürəkkəb problemlər çıxdı.

İkincisi, bu kurs ölkəmizi əhatə edən geosiyasi reallığı dəqiqliklə nəzərə alırdı. Regionda baş verən proseslər və böyük dövlətlərin onda iştirakı olduqca mürəkkəb vəziyyət yaratmışdı. İlk növbədə, regionun nüfuzlu dövlətləri olan Rusiya, Türkiyə və İran istiqamətində səmərəli və obyektiv reallığı nəzərə alan kurs müəyyənləşdirilməli idi.

Üçüncüsü, Ulu Öndər xarici siyasət strategiyasını hazırlayarkən ölkəmizin təbii-coğrafi şəraitini, geosiyasi amilləri və yerləşdiyimiz ərazinin geostrateji əhəmiyyətini xarici siyasət kursunun əsas faktorları sırasına daxil etdi.

Növbəti çox əhəmiyyətli məqam ölkəmizin zəngin enerji resurslarına və nəqliyyat-logistika imkanlarına malik olmasının xarici siyasət strategiyasının mərkəzi punktlarından biri statusuna gətirilməsi ilə əlaqəlidir.

Təbii ki, Heydər Əliyevin xarici siyasət kursundan bəhs edərkən bu böyük şəxsiyyətin Ermənistan-Azərbaycan münaqişəsi istiqamətində atdığı addımları vurğulamamaq mümkün deyildir. Müasir müstəqillik tarixində ilk dəfə olaraq Heydər Əliyev bu məsələni konseptual formada Azərbaycanın xarici siyasət kursunun prioritet məsələləri sırasına daxil etdi".

Vahid İsmayılov 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışının Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdığını deyib. Bildirib ki, bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi:

"Bu dövrdən başlayaraq, həyata keçirilən xarici siyasətimiz məhzÜmummilli Liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslandıraraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu.

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətdən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamızın ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. 1993-cü ilin sentyabrında Azərbaycan Müstəqil Dövlətlər Birliyinə üzv oldu. 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı".

Çıxışçı sonda müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın xilaskarı olan ümummilli lider Heydər Əliyevin siyasi kursunun bundan sonra da uzun illər boyu milli dövlətçiliyimizn inkişafına xidmət edəcəyini vurğulayıb.

Sonda tədbir müzakirələr və Ulu Öndərə həsr olunmuş sənədli film ilə sonlandırıldı.

*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı elmi-işçisi*

